# Özünəməxsus ənənələri olan sənət ocağı

**Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illik yubileyi qeyd edilir. Ötən illər ərzində Azərbaycan teatr sənəti zəngin tarixi yol keçib. Bir sıra teatr kollektivləri yaranıb. Respublikamızda fəaliyyət göstərən ayrı-ayrı teatrlar bir-birindən maraqlı, yaddaqalan tamaşalar təqdim ediblər. Belə sənət ocaqlarından biri də Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrıdır.**




Teatr tarixi binada yerləşir. Məlumata əsasən, XIX əsrin sonlarında milyonçu tacir Hacı Həşim bəyin sifarişi ilə Molokanskaya küçəsində (indiki Xaqani küçəsi) məhsul ehtiyatını saxlamaq üçün anbar tikilib. Hacı Həşim bəyin oğlu Əliheydər bəy Çinə və Yaponiyaya səyahət edib. Bakıya qayıtdıqdan sonra o, səfərinin təəssüratlarından həvəslənib bu sadə binanı rekonstruksiya etdirmək qərarına gəlib. Binada 1916-cı il fevralın 26-dan Mikado sinematoqrafı fəaliyyət göstərib. "Mikado" adlandırılan binada teatr tamaşaları, bəzən isə filmlər nümayiş etdirilib.

1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə binada "Pelmel" klub teatrı fəaliyyətə başlayıb. Əsasən, rus və digər millətlərin teatr və musiqi həvəskarları, əcnəbi truppalar burada çıxış ediblər.

1920-ci il aprelin 28-də Azərbaycan bolşeviklərin işğalına məruz qalıb. Həmin ildən sözügedən binada Bakı Azad Tənqid-Təbliğ Teatrı adı ilə fəaliyyət göstərən teatr dövrə uyğun olaraq bolşevik təbliğatı aparıb. 1923-cü ildə teatr Bakı İşçi Teatrı adlandırılıb.

Binada 1928-ci ildə təmir-rekonstruksiya işləri həyata keçirilib. Tikilinin künc hissəsində teatrın emblemi yerləşdirilib.

1937-ci il yanvarın 24-də Azərbaycan SSR Xalq Komissarları Şurasının qərarı ilə Bakı İşçi Teatrının adı dəyişdirilib. Azərbaycan Dövlət Rus Dram Teatrı adlandırılıb. 1945-ci ildə, İkinci Dünya müharibəsi başa çatdıqdan sonra teatrın yerləşdiyi bina təmir olunub. Təmir işləri tikilidə dəyişiklik edilmədən həyata keçirilib.

1956-cı il mayın 27-də Xalq şairi Səməd Vurğun vəfat edib. Həmin il iyunun 11-də məşhur şairin adı Dövlət Rus Dram Teatrına verilib.

1962-1964-cü illərdə İvan Sarkisov və Xanım Rəhmanovanın rəhbərliyi ilə bina əsaslı şəkildə rekonstruksiya olunub. Binanın fasadında növbəti dəyişiklik 1980-ci ildə edilib. Teatrın binasında son rekonstruksiya işləri 2005-ci ildə həyata keçirilib.

Teatrda 1925-1930-cu illərdə "Lyubov Yarovaya", "Qiyam", 1930-1940-cı illərdə "Don Karlos", "Romeo və Cülyetta", "Canlı meyit" və başqa əsərlər səhnələşdirilib. Bu sənət ocağında 1950-ci illərdə tamaşaya qoyulan "Aydın", "Hamam" və digər tamaşaların uğurlu alınması barədə yüksək fikirlər bildirilib. Səməd Vurğun adına Dövlət Rus Dram Teatrının repertuarı ildən-ilə zənginləşib.

Prezident İlham Əliyevin imzaladığı 5 mart 2019-cu il tarixli sərəncama əsasən, Azərbaycan teatrlarının fəaliyyətinə dövlət qayğısını daha da artırmaq məqsədilə Azərbaycan Dövlət Musiqili Teatrına və Azərbaycan Dövlət Rus Dram Teatrına "akademik" statusu verilib.

Uzun illərdir müxtəlif adlarla fəaliyyət göstərən bu sənət ocağının yaradıcı kollektivi tamaşaçılarının qarşısına maraqlı repertuarla çıxır. Dünyanın, Azərbaycanın klassik və müasir dramaturqlarının əsərləri Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının repertuarını bəzəyir. Teatrda L.Qerşin "Bu azad kəpənəklər", Elçinin "Cəhənnəmin kirayəçiləri", U.Şekspirin "Kral Lir", J.Anuyun "Torağayı", A.Çexovun "Qağayı", L.Razumovskayanın "Nikah agentliyi" "1+...", Y.Lomovçevin "Yeddi pokrıvalın rəqsi", M.İbrahimovun "Zati-aliləri rolls-roys", V.Neverovun "Nağılı tap" əsərləri əsasında səhnələşdirilən digər tamaşalar alqışlarla qarşılanır.

Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı yalnız böyüklər üçün deyil, uşaqlar üçün də tamaşalar hazırlayır.

*Z.FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 17 sentyabr.- S.11.